Araşdırma



Xalq şairi Səməd Vurğunun sözləri ilə desək, Süleyman Rəhimov XX əsr "Azərbaycan ədəbiyyatının ağır artilleriyası", əvəzsiz roman ustası kimi tanınmış, "Şamo", "Saçlı", "Ağbulaq dağlarında", "Ana abidəsi", "Qafqaz qartalı" romanları ilə ümumxalq məhəbbəti qazanmışdır. Onun "Mehman", "Aynalı", "Medalyon", "Qardaş qəbri", "Arzu", "Ata və oğul", "Məhtaban", "Yaxşılıq" kimi povestləri və bir çox hekayələri geniş oxucu kütləsinin diqqətini özünə cəlb etmiş, nəsillərin mənəvi tərbiyəsində mühüm rol oynamışdır.

sələni nəzərdə tutmalıyıq. Ayrı-ayrı xalq artistinin, əməkdar incəsənət xadiminin, adlı-sanlı şairin, ədibin, dramaturqun fəaliyyəti, həmişə, hər zaman xalqa göstərdiyi xidmətlə ölçülməlidir".

Ədibin bu sözlərini tam mənada onun özünə də aid etmək olar. Çünki S.Rəhimov həmişə doğma Azərbaycan xalqının mədəniyyətinin, maarifinin, təhsilinin, elminin, ədəbiyyatının, incəsənətinin çiçəklənməsinə çalışmışdır. O, bir tərəfdən əsl yazıçı kimi kitaba, kitabxanaya qırılmaz tellərlə

# "ELM VƏ SƏNƏT ÖZ İNKİŞAFI ÜÇÜN KİTABÇILIQ İŞİNƏ MİNNƏTDARDIR..."

## Xalq yazıçısı Süleyman Rəhimovun ədəbi irsində kitab və mütaliə məsələləri

**XX əsr Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimov (1900-1981) milli mədəniyyətimizin və ədəbiyyatımızın inkişafında mühüm xidmətlər göstərmiş qüdrətli sənətkarlarımızdan biridir. O, çox maraqlı yaradıcılıq yolu keçmiş, ədəbiyyatımızda özünəməxsus yer tutan romanlar, povestlər, hekayələr, dərin məzmunlu publisistik və tənqidi məqalələr yazmışdır.**

Süleyman Rəhimov milli mədəniyyətimizin dirçəlişinə də həmişə xüsusi diqqət yetirmiş, bu münasibətlə "Yaxşılıq" adlı bir povest və onlarla məqalə yazıb nəşr etdirmişdir. Təəssüf ki, onun həyat və yaradıcılığını tədqiq edən ədəbiyyatşünas alimlər bu məsələyə ötəri şəkildə toxunmuşlar.

**"Bu dünyada heç balaca bir daxma da, balaca bir kitabça da özbaşına yaranmamışdır"**

Süleyman Rəhimov məqalələrinin birində yazır: "Gördüyümüz əzəmətli şəhərlər, çoxmərtəbəli binalar, çal-keçir dəmiryol şəbəkələri, saysız-hesabsız mədəniyyət abidələri insan əməyinin, insan əqlinin, insan zəkasının məhsuludur... Bu dünyada heç balaca bir daxma da, balaca bir kitabça da özbaşına yaranmamışdır... Şüurlu insan əməyi daima tərəqqiyə xidmət etmiş, həyata yeniliklər gətirmişdir...".

Bunun təsdiqi kimi sənətkarın daha bir fikrinə nəzər salaq: "Yazıçılarımız öz qüdrət və ilhamını xalqdan alırlar. Ayrı-ayrı şəxsiyyətlər xalqa xidmət üçündür. Biz həmişə bu mühüm mə-

bağlı idisə, digər tərəfdən 1945-1953-cü illər ərzində Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri olaraq milli mədəniyyətimizin tərəqqisi naminə uğurla fəaliyyət göstərirdi.

S.Rəhimov 10 cildik "Seçilmiş əsərləri"nə yazdığı "Həyat yolu (Xatirat dəftərindən)" adlı ön sözündə o dövrü belə xatırlayır: "İlk əzəldən mədəni-maarif komitəsinin işini təşkil etməli olduq. Müharibədən dönən, ağır sınaqlardan çıxan namuslu şərəfli ziyalılardan Komitəyə işə götürdük, tez bir zamanda idarənin alt qatında yüngül bir mətbəə düzəldə bildik... Külli nüsxələrlə nəşr edilən çağırışları - məktubları kəndarası divarlara yapışdırmaqda, camaatın yığıncaq yerlərində oxumaqda mədəni-maarif işçiləri, oxucular köməyimizə gəldilər. Bu məktubları və müraciətləri mən bir növ bədii, "Şamo" dilində yazırdım.... Çapxanadan çıxan məktublar, müraciətnamələr, qiraətxana, klub, kitabxanalar üçün göndərdiyimiz xırda kitabçalar işlərimizə xeyli kömək etdiyi üçün mənə hədsiz zövq verməyə başladı. Bədii əsər də xalq üçün deyilmi?".

S.Rəhimov Azərbaycanda mədəni quruculuq işlərinin geniş vüsət alması üçün mühüm xidmətlər göstərmiş, mədəni-maarif müəssisələrinin inkişafı qayğısına qalmış, milli mədəniyyətimizin çiçəklənməsi naminə səmərəli təşəbbüslərlə çıxış etmiş, bu təşəbbüsləri həyata keçirə bilmişdir.

Ədib yazır: "Bir sıra rayon mərkəzlərində mədəniyyət sarayı və kitabxana binaları tikməyə başladıq. Respublika mətbuatı, namuslu xalq ziyalıları bu işə xeyli kömək etdilər, xalqımızın mədəni quruculuq hərəkatını mətbuatımız öz səhifələrində müntəzəm olaraq işıqlandırdı... Masallı, Lənkəran, Kürdəmir, Tovuz, Ağdam, Ağdaş kimi rayonlarda fəalların iştirakı, əməksevən namuslu kəndlilərin köməyi ilə tipik layihə əsasında, milyon manata başa gələn mədəniyyət sarayları bir-birinin ardınca ucalırdı. Bu müddət ərzində kitab fondumuz da xeyli artdı. Biz neft fondu hesabına Bakıdan rayon və kənd kitabxanalarına ardı-arası kəsilməyən kitab bağlamaları göndərir, kitabxanaları mədəni müxəllifatla təchiz edirdik. Bütün bunlarla birlikdə, xeyli müddət ərzində çalışıb vuruşduqdan sonra bu gün şəhərimizin mərkəzində ucalan Respublika Dövlət Kitabxanasının layihəsini Moskvada təsdiq etdirmək, tikinti sahəsində yaşayanları ya pul-para, yaxud mənzillə təmin edib köçürmək, bu yaraşıqlı böyük binanın təməlini qoymaq mümkün oldu".

**Kitab tarixindən ilk mühazirəni Süleyman Rəhimov oxumuşdur**

Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcıları sırasında Süleyman Rəhimovun müstəsna xidməti var. Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov bu məsələdən bəhs edərək yazır ki, şöbənin yaradılmasında 1945-ci ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Kamitəsinin sədri Süleyman Rəhimovun mühüm xidməti olmuşdur. O, mədəni-maarif müəssisələrinə başçılıq etdiyi dövrdə kitabxana işinin hərtərəfli inkişafı, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana şəbəkəsinin artması, kitab fondlarının çoxalması, əhaliyə kitabxana xidmətinin təkmilləşdirilməsi sahəsində müvəffəqiyyətlər əldə edilmişdir. Görkəmli yazıçı, həssas insan və yetkin bir ziyalı kimi Süleyman Rəhimov kitab və kitabxana işini mədəni inkişafın mühüm sahəsi kimi çox yüksək qiymətləndirir, mütaliəni xalqın şüurlanmasının əsas vasitələrindən biri hesab edirdi. Kitabxana işi onun nəzərində xalqın ümumi mədəniyyətinin yüksəldilməsi vasitəsi, kitabxanaçı isə işıq və tərbiyə mənbəyi idi. Məhz buna görədir ki, Süleyman Rəhimov kitabxanaçılıq şöbəsinin, sonralar isə kitabxanaçılıq fakültəsinin işi ilə həmişə maraqlanmış, onun işinə kömək etmişdir. O, kitabxanaçılıq fakültəsinin tələbələrinin görüşünə gəlməyi, yeni əsərlərinin müzakirəsində iştirak etməyi çox sevirdi.

1947-ci ilin oktyabr ayında universitetin filoloji fakültəsinin yanında kitabxanaşünaslıq və biblioqrafiya kafedrasının yaranmasında, kafedra üçün müəllim kadrlarının seçilməsində də Süleyman Rəhimov yaxından iştirak etmiş, kitabxanaçılıq şöbəsində kitab tarixindən ilk mühazirəni də onun özü oxumuşdur.

**"Kənddə aptek açmazdan əvvəl kitabxana açmaq lazımdır"**

Professor A.Xələfov yazır ki, S.Rəhimovun kitabxana işi sahəsində ən böyük xidməti Azərbaycanın kənd rayonları mərkəzlərində nümunəvi kitabxana binalarının tikintisi olmuşdur. Respublikanın 20-yə yaxın rayonunda ilk dəfə olaraq nümunəvi layihə ilə xüsusi kitabxana binaları tikilmişdi. O qeyd edirdi ki, kənddə aptek açmazdan əvvəl kitabxana açmaq lazımdır ki, kənd əhalisi oxusun, savadlansın, səhiyyə mədəniyyəti yüksəlsin, onda onlar öz səhhətlərini qorumağa imkan qazanacaqlar, xəstələnməyəcəklər, onlara dərman lap az lazım olacaq.

Obrazlı ifadə edilmiş bu sözlərdəki böyük həqiqət hamıya məlumdur. Görkəmli yazıçı, həssaz insan və yetkin ziyalı kimi S.Rəhimov kitab və kitabxana işinin mədəni inkişafın çox vacib sahəsi kimi qiymətləndirir, mütaliəni xalqın savadlanmasının əsas vasitələrindən biri hesab edirdi. Kitabxana işi onun nəzərində xalqın ümumi mədəniyyətinin yüksəldilməsi vasitəsi, kitabxanaçı isə işıq və tərbiyə mənbəyidir. O, kitabxanaçını pedaqoq, müəllim, bilikləri yayan, insanlara işıq bəxş edən bir şəxs kimi dəyərləndirir, kitabxanaçılıq təhsilinin təşkili, tədris prosesi, kitabxanaşünas-biblioqraf kadrların hazırlanması ilə maraqlanırdı. Yazıçı müntəzəm olaraq kitabxanaçı tələbələrlə görüşə can atır, onların qarşısında çıxış etməyi özünün mənəvi borcu bilirdi.

Böyük Vətən müharibəsindən sonra tez-tez Azərbaycanın rayonlarına gedən, mədəni-maarif müəssisələrinin zəhmətkeşlər arasında apardığı işlərlə yaxından maraqlanan, kəndlərdə, rayon mərkəzlərində mədəniyyət sarayları, klublar və kitabxanalar tikilməsi hərəkatının fəal iştirakçılarından biri olan ədib çox ibrətamiz hadisələrin şahidi idi. Təsadüfi deyil ki, kitabxana və mədəniyyət saraylarında aparılan iş "Ağbulaq dağlarında" romanında mühüm yer tutur.

**"Şamo", "Saçlı", "Ana abidəsi"...**

Yazıçı hələ ilk romanlarından başlayaraq sevimli qəhrəmanları Şamonun, Rüxsarənin, Fərhadın və başqalarının bir şəxsiyyət və ədəbi obraz kimi inkişafında kitabın, mütaliənin əvəzsiz rolunu dönə-dönə qeyd etmişdir. Maraqlıdır ki, yazıçı təkcə baş qəhrəmanları deyil, digər müsbət surətləri də kitaba və kitabxanaya bağlı insanlar kimi qələmə almışdır. Məsələn, "Saçlı" romanında xalqın mənafeyi və xoşbəxtliyi yolunda mübarizə aparan Tahir Dəmirov klassiklərdən öyrənməklə yanaşı, Lev Tolstoyun "Hərb və sülh" əsərini ikinci dəfə oxuyur, təsəvvüründə ağsaçlı Mirzə Fətəli canlanır; Azərbaycan nağıllarını sevir, "Molla Nəsrəddin"in əlinə keçmiş nüsxələrinin üstündə əsir. Sabirdən, Şirvanidən, Puşkindən əzbər parçalar söyləyir. Bu hərtərəflilik onu gündəlik cari işlərin arasında itib-batmaqdan xilas edir.

Ədibin "Ana abidəsi" romanının qəhrəmanları da elmə, biliyə, savada, kitaba, maariflənməyə qiymət verən adamlardır. Əsərdəki surətlərdən biri - görkəmli maarifçi və dövlət xadimi kimi təsvir olunmuş Zəkəriyyəoğlu yaxşı başa düşür ki, xalqın mədəni yüksəlişi

probleminin kompleks halda, maarif və mədəniyyətin bütün sahələri arasında üzvi əlaqədə həll etmək, irəlilətmək lazımdır. Kitabın, elmin, mədəniyyətin qüdrətinə inanan Zəkəriyyəoğlu deyir: "Biz nəinki orta təhsilli müəllimi indiki kimi əldə çıraq axtaracağıq, hətta ali təhsilli müəllimlərlə Azərbaycan kəndini tamamən, "bəsdi" deyincə təmin edəcəyik!"

**"Mədəni-maarif işlərinin yüksəlişi uğrunda"**

S.Rəhimovun kitab, mütaliə, kitabxana, kitab təbliği ilə birbaşa bağlı olan ayrıca bədii və publisistik əsərləri də vardır. Bu baxımdan yazıçının "Yanan buludlar", "Mədəni-maarif işlərinin yüksəlişi uğrunda", "Azərbaycanda siyasi-maarif işləri", "Mədəni-maarif müəssisələrinin mübariz vəzifələri", "Gənclik və kənddə mədəni-məişət məsələləri", "Təqdirəlayiq təşəbbüs", "Kitabxana", "Kitabxana işləri haqqında", "Kəndlərə mədəni xidməti daha da yaxşılaşdıraq", "Mədəni-maarif ocaqlarının görkəmi və səliqəsi haqqında", "Mədəniyyətimizin böyük nailiyyətləri", "Qazax və Qazıməmməd rayonlarında mədəni-maarif işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" kimi onlarca publisistik yazıları böyük əhəmiyyətə malikdir. Bu əsərlərdə S.Rəhimov özünü kitabçılıq və kitabxana işinin bilicisi, milli mədəniyyətimizin əsl qayğıkeşi və təbliğatçısı kimi təsdiqləyir.

40-cı illərin sonu - 50-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın bir çox rayonlarında və kəndlərində ucaldılan mədəniyyət evləri və kitabxanalar, mədəniyyət sarayları və klublar məsələsini S.Rəhimov ilk dəfə 1947-ci ildə yazıb dərc etdirdiyi "Yanan buludlar" adlı oçerkində qaldırmışdır. Yazıçının xoş niyyətlə irəli sürdüyü bu təşəbbüs az sonra rayon və kəndlərimizdə geniş ümumxalq hərəkatına çevrilmişdir.

"Yazıçı gərək kitabdan-kitaba deyil, həyatdan-həyata, gedə-gedə, axtara-axtara yeni sənət əsəri yaratsın" - deyən yazıçının özü bütün yaradıcılığı boyu bu prinsipə əməl etmiş, bir-birindən dəyərli bədii ədəbiyyat nümunələri qələmə almışdır.

Azərbaycanda mədəni-maarif işinin yüksəldilməsini əsas vəzifələrdən biri kimi dəyərləndirən, mədəniyyət ocaqlarının yaradılmasını ürəkdən alqışlayan, imkanı daxilində özü də bu işə kömək göstərən S.Rəhimov bir neçə rayonda kitabxana binasının açılışında iştirak etmişdir.

**"Kitab və kitabxana ən nurlu bir işıqdır"**

S.Rəhimov 1945-ci ildə dərc etdirdiyi məqalələrinin birində yazır: "Zəmanəmizdə kitabsız mədəniyyətdən və mədəni inqilabdan danışmaq olmaz! Kitab insan ağlının və əməyinin məhsuludur. Elm və sənətin hər hansı bir sahəsi öz inkişafı üçün kitabçılıq işinə minnətdardır...".

Göründüyü kimi, yazıçı mədəniyyət və mədəni tərəqqinin əsas amili kimi kitabı çox yüksək qiymətləndirir, kitabçılığı bütün elm və sənət sahələrinin zirvəsinə qaldırır. Kitabı mənəvi qida adlandıran yazıçı daha sonra deyir: "Kitab elm və sənət abidəsidir. Böyük filosoflar, şairlər və alimlər kitabla yaşayırlar. Nizami "Xəmsə" ilə, Tolstoy "Hərb və sülh" ilə, Sabir "Hophopnamə" ilə yaşayır. Kitab olmasaydı, bəşəriyyətin böyük simaları ulduzlar kimi öz vaxtlarında parlayıb, sonra sönüb gedərdilər".

Ədib 1948-ci ildə İsmayıllı rayon kitabxanasının açılışı münasibəti ilə qələmə aldığı "Kitabxana" adlı məqaləsində həm kitab, həm də kitabxana haqqında ən gözəl fikirlər söyləmiş, onları daim yanaraq cəmiyyətin, insanların şüurunu, ağlını, yaşayışını nura qərq eləyən sönməz işıq adlandırmışdır. O yazır: "Kitab və kitabxana ən nurlu bir işıqdır. Kitab şüur üçün, ağıl və dimaq üçün, gündəlik təsərrüfat işləri üçün də əsl işıqdır. Kitab gecə də, gündüz də işıqdır!.."

Öz məqaləsində "oxucu-kitabxana" münasibətinə də toxunan S.Rəhimov fikrini belə davam etdirir: "Oxucu kitabxananın əsl dostu, kitabxana isə oxucunun çox sevdiyi müqəddəs bir yerdir". Cəmiyyətdə kitabxanaların tutduğu mühüm yeri düzgün müəyyənləşdirən yazıçı qənaətini bu cür əsaslandırır: "Qabaqcıl mütərəqqi simaların yaratdığı xatirələri özündə toplayan, hər zaman onu oxucuya təqdim edən kitabxanadan da xeyirli nə ola bilər!..".

**Ən böyük yaradıcı? Zəhmətkeş sənətkar!**

Kitaba, mütaliəyə və kitabxanaya dərin hörmətlə yanaşan, hər bir ziyalının həyatında onların rolunu əvəzsiz sayan S.Rəhimov ədəbi-tənqidi məqalələrinin birində haqlı olaraq yazır ki, bəzi şair və yazıçıların yaradıcılığındakı mövzu kasadlığı, aktuallığını itirmiş məsələlərin zəif təsviri ilk növbədə onların müəllifinin mütaliə dairəsinin zəifliyi, kitab oxumaması, zəhmətə qatlaşmamasıdır. O deyir: "Yaradıcı zəhmətdən kənar heç bir barlı-bəhrəli zəka yoxdur, ola da bilməz. Ən böyük zəka, ən böyük yaradıcı zəhmətlə işıqlanmışdır! Məndən soruşsalar ki, ən böyük zəka sahibi kimdir? Mən deyərdim, ən böyük yaradıcı zəhmətkeş sənətkar! Yaradıcı zəhmətsiz hər hansı zəka çox tezcə sönər, onun mənəvi aləminə çox tezcə qaranlıq çökər!".

Bununla birlikdə S.Rəhimov oxucuları zəif əsərlərin mütaliəsindən çəkindirərək, yazıçıları oxucunun bədii zövqünü formalaşdırmağa qadir əsərlər yaratmağa çağırır: "Bizim bədii əsərlərimiz ürəyimizə girən, bədii zövqümüzə, duyğularımıza qida verən, bizi düşündürən, mənən silahlandıran əsərlər almalıdır. Bizi düşündürməyən, həyəcanlandırmayan, ayaq barmaqlarının ucunda oğrun-oğrun böyrümüzdən ötüb keçən əsər, hər hansı mövzuya həsr edilmiş olsa da bədii əsər ola bilməz. Bədii əsər açıq carçı kimi bizi səsləməli, gur avazla hər kəsi çağırmalıdır".

Oxucu zövqünü mütləq nəzərə almağın vacibliyini dönə-dönə təkrarlayan görkəmli yazıçı fikrini belə əsaslandırır: "Bizim zəmanəmizdə yüksək mədəni səviyyəli, orta, ali təhsilli oxucunun bədii zövqünü nəzərə almamaq olmaz!.. Çünki indi tək-tək adam deyil, demək olar ki, bütün xalqımız orta, ali təhsilli olmuşdur. İndi oxucu barmaqla sayılan tək-tək bərgüzidə zadəganlardan, qara qaytan eynəkli münəvvərlərdən ibarət deyil, bütün kütlədir".

**"Yazıçı üçün son nəfəsinə qədər öyrənmək, inkişaf etmək, artmaq gərəkdir"**

Ədib bədii əsərin qiymətini kitabın qalınlığında, nazikliyində görmədiyini, əksinə, daxili dəyərlə bağlanmayan qalınlığın artıq yük olduğunu, bədii əsərin həcmini onun sanbalı ilə bağlandığını qeyd edir: "Məsələ heç də əsərin qalınlığında, ya nazikliyində deyildir, məsələ əsərin məzmununda, bədii keyfiyyətində, bədii dəyərindədir, onun üzərində həqiqi sənətkarın sərf etdiyi yaradıcılıq saatlarının miqdarındadır".

Ona görə də S.Rəhimov səmərəli mütaliəni yaradıcılığın düzgün təşkili və idarəsi ilə əlaqələndirərək yazır: "Yaradıcılığı təşkil və idarə etmək zəruridir. Mən bizim yaradıcılığımızın təşkilini, bizim mədəni-mə`nəvi inkişafımızın artımı kimi nəzərdə tuturam. Yazıçı üçün son nəfəsinə qədər öyrənmək, inkişaf etmək, artmaq gərəkdir. Bu artım isə dünya mədəniyyəti ilə, böyük sənətkarlarla tanış olmaqdan başqa, özündə, öz yaradıcılığında da olmalıdır".

Yazıçı hər bir mədəni adamın öz mütaliə dairəsini genişləndirməsinin zəruri olduğunu xüsusilə vurğulayır: "Əlbəttə, nə qədər çox oxusan, nə qədər çox bilsən, o qədər yaxşıdır... Hər bir mədəni adam (müəllim, mühəndis, aqronom, təbib və s.) bizim klassikləri, bizim ədəbiyyatı, dünya ədəbiyyatını bilməlidir, oxumalıdır, öyrənməlidir. Bədii ədədbiyyatı oxumayan, tanımayan ziyalını bir ziyalı kimi təsəvvürə gətirmək müşküldür".

S.Rəhimov oxucunun maraq və tələbinin nəzərə alınması ilə bağlı yazır: "Zəmanəmizdə oxucunun, tamaşaçının yüksək mədəni tələblərini nəzərə almamaq olmaz... Əgər bir əsər əldən-ələ gəzmirsə, onun vərəqləri oxucu barmaqları ilə sökülüb dağılmırsa, necə deyər, elə "təzə tikilib, təzə də qalırsa", demək, bu əsər yaşamır, sürünür, haqq qazanmır, küncdə-bucaqda boğulur, nəfəsi təngişir, ağzına oksigen balışı tutsan da işıq üzü görmədən ölür!.. Belə əsər müəllifi... oxucunun qərəzsiz hökmünü dinləməli, ictimaiyyət qarşısında vicdani məsuliyyət daşımalıdır".

**"Yaxşılıq"**

S.Rəhimovun 1971-ci ildə yazdığı "Yaxşılıq" povestinin süjetini M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası üçün yeni bina layihəsinin təsdiqi və onun tikintisi təşkil edir.

Əsərin baş qəhrəmanı Mümtaz Niyazzadə sadə bir kəndli ailəsinin yetişdirməsidir. Sonralar o öz istedadı və zəhməti sayəsində respublikada yüksək vəzifələrdən birinə - Mədəni-Maarif Komitəsinin sədri vəzifəsinə təyin olunur. Həyatının mənasını insanlara və cəmiyyətə yaxşılıqda görən Mümtaz Niyazzadə ona müraciət edənlərə, xüsusilə gənclərə kömək göstərir, onların təhsil alması üçün bütün imkanlardan istifadə edir.

Bir dəfə küçədə gözünün altı qaraldılmış bir oğlan görür. Məlum olur ki, onun adı Seyrandır, özü də tələbədir, gözünün altındakı "fənər" isə kitabxananın oxu zalında yer uğrunda mübarizənin nəticəsidir. Məhz bu təsadüfi hadisə Niyazzadəni uzun müddət narahat edir və o qəti qərara gəlir: "Respublika dövlət kitabxanasını köhnə İsmailliyyənin köhnələn, müasir kitabxanaya heç də əl verməyən zirzəmilərindən, darısqal dəhlizlərindən çıxaraq".

Niyazzadə kitabxanaya gənc nəslin elm, bilik, təlim-tərbiyə mərkəzi kimi baxır. Odur ki, o, yeni tikiləcək kitabxana binasının daha geniş və yaraşıqlı olmasını arzulayır: "Bu kitabxana necə olmalıdır? - Niyazzadənin təxəyyül aləmində qəribə bir ecazla memar olmasa belə, kitabxana yaranmağa başladı. Bu kitabxananın pilləkəni geniş, girəcəyi "İsmailliyyə" adı ilə tikilən binadan heç də geriyə deyil, irəli olmalıdır! Burada kitablar öz müasirlik xüsusiyyətlərinə görə səliqə-səhmanla olmalıdır! Oxucu tələb edən kitab tez tapılmalıdır. Bu kitabxana azı-azı əlli il, bəlkə də bir əsr qabağa baxıb, ehtiyacı ödəməlidir".

Nəhayət, Niyazzadənin arzuları gerçəkləşməyə başlayır. Dövlət kitabxanası layihəsi memar-akademik Hüseynzadənin başçılığı ilə üç il ərzində gecəli-gündüzlü işlənəndən sonra Ümumittifaq Dövlət Komitəsi tərəfindən təsdiq olunur. Niyazzadə ali təşkilatda bu layihənin təsdiqi üçün böyük səy göstərir, belə bir kitabxana binasının xalqımıza nə dərəcədə lazım olduğunu sübuta yetirir, Moskvadan Bakıya qələbə ilə qayıdır.

Qeyd edək ki, Mümtaz Niyazzadə surəti Süleyman Rəhimovun özü, memar-akademik Hüseynzadə surəti isə memar Mikayıl Hüseynovdur. Məhz onların birgə fəaliyyəti nəticəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının indiki binası 1960-cı ildə tikilib istifadə verilmişdir.

**"Kitabxana ağlın laboratoriyasıdır"**

Görkəmli xalq yazıçısı Süleyman Rəhimovun, demək olar ki, bütün əsərləri bu və ya digər dərəcədə kitabla, mütaliə ilə və kitabxana ilə bağlıdır. Əlbəttə, bütün bunları bir elmi məqalədə əhatə etmək mümkün deyil. "Kitabxana ağlın laboratoriyasıdır" - deyən S.Rəhimovun kitab və kitabxana ilə bağlılığı gələcəkdə daha ətraflı araşdırılacaqdır.

**Knyaz ASLAN**
*Pedaqoji elmlər namizədi, dosent*

**ƏDƏBİYYAT**

1. *Rəhimov S. Yazıçı və həyat (Ədəbiyyat məsələlərinə dair məqalələr).-B.: Azərnəşr, 1961.-S.506.*

2. *Rəhimov S. Həyat yolu (Xatirat dəftərindən) / Seçilmiş əsərləri: 10 c.-də. C.1.-B.: Azərnəşr, 1968.-S. 596.*

3. *Xələfov A. Azərbaycanda kitabxanaçılıq təhsilinin inkişafı.-B.: Maarif, 1987.-S.132.*

4. *Xələfov A. Azərbaycan ali kitabxanaçılıq təhsili.-B., 1998.-S.20.*

5. *Seyidov Y., Qasımzadə Q. Süleyman Rəhimov (Monoqrafiya).-B.: Azərnəşr, 1960.-S.120.*

6. *Seyidov Y. Süleyman Rəhimovun romanları.-B.: Elm, 1975.-S.224.*

7. *Rəhimov S. Ana abidəsi (Roman). Birinci kitab.-B.: Azərnəşr,1967.- S.31.*

8. *Rəhimov S. Yanan buludlar (Oçerk) // Kommunist.-1947.-19, 21, 22, 23 noyabr.*

9. *Rəhimov S. Ədəbi mülahizələr // Azərbaycan.-1968.-№11.-S.148.*

10. *Rəhimov S. Yaxşılıq: Povest.-B.: Gənclik, 1986.-S.225.*